# ALİ PEDAQOJİ TƏHSİLİN İNKİŞAFINDA BOLONİYA PROSESİ VƏ PEDAQOJİ KADR HAZIRLIĞI



**Aynur Kərimova,**
*Gəncə Dövlət Universitetinin Təhsilin pedaqogikası və metodikası kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru*
*e-mail: aynurhesenova@list.ru*

**UOT:** 37

**Xülasə**. *Avropa son illərdə ümumi təhsil məkanına çevrilməkdədir. Ümumi Avropa zonasının intellektual, mədəni, sosial, texniki bazasını yaratmaq və gücləndirmək istiqamətində Boloniya prosesinin çox mühüm əhəmiyyəti vardır. Məqalədə, məhz Azərbaycanın pedaqoji kadr hazırlığında Boloniya prosesinin rolundan bəhs edilir.*

***Açar sözlər:*** *təhsil sistemi, pedaqoji ixtisaslı məzunlar, Boloniya prosesi, "Fasiləsiz təhsil" Konsepsiyası, ali təhsil.*
***Key words:*** *the education system, graduate teaching, Bologna process, "Continuous education" concept, high education.*
***Ключевые слова:*** *система образования, выпускник обучения, Болонский процесс, понятие «Непрерывное образование», высшее образование.*

Boloniya prosesinin əsas mahiyyəti yaxın illərdə Avropa ali təhsil zonası adlanan və fundamental fəaliyyət prinsiplərinin eyniliyinə əsaslanan ümumavropa ali təhsil sisteminin formalaşdırılmasından ibarətdir. Avropa Şurası Ali Təhsil Departamenti rəsmi nümayəndələrinin iştirakı ilə respublikamızda keçirilən "Boloniya prosesi: siyasət və təcrübə" mövzusuna həsr edilmiş tədbirlər bu istəyi reallaşdırdı.

Boloniya sisteminə qoşulan ölkələr üçün bu prosesin prioritet prinsipləri müxtəlifdir. İkipilləli ali təhsil və kredit sistemlərinin tətbiqi, təhsilin keyfiyyətinə nəzarət, mobilliyin genişləndirilməsi, dərəcələrin tanınması, ali məktəb məzunlarının işlə təmin olunmasına nail olmaq, Avropada təhsil alacaq tələbələrin təminatı, təhsilin sosial yönümlülüyü, yəni ömürboyu təhsilə imkan yaradılması əsas prinsiplərdəndir. Əsas məsələ həm formaca, həm də məzmunca asan başa düşülən diplomların verilməsidir.

Məlumdur ki, 1998-ci ilin 25 may tarixində 4 ölkənin (Böyük Britaniya, Almaniya, İtaliya, Fransa) təhsil nazirləri tərəfindən "Sorbon Bəyannaməsi" imzalandı. Bu Bəyannamə ümumi Avropa təhsil tarixinə Boloniya prosesinə aparan ən önəmli yol kimi düşmüşdür. 1999-cu ilin iyun ayında isə 30 Avropa ölkəsinin təhsil nazirləri İtaliyanın Boloniya şəhərində ümumavropa ali təhsil sisteminin gələcək inkişaf tendensiyalarını rəsmi təsdiqləmək məqsədi ilə "Boloniya Bəyannaməsi"nə imza atdılar. Avropa Şurasına üzv olan ölkələrin əksəriyyəti Boloniya Bəyannaməsinə qoşulmuşdur. Avropa Şurasına daxil olan 40

ölkənin bu prosesi dəstəkləməsi çox böyük hadisədir. Çünki mütərəqqi metodlardan bəhrələnmək müasir dünyamızın əsas tələbidir. Bu, həm də Avropanın özündə olan dövlətlərin əməkdaşlığına əlverişli şərait yaradan ən səmərəli prosesdir. Hazırda Avropa məkanında bu proses intensiv şəkildə gedir, yaxın gələcəkdə həmin prosesə bütün Avropa ölkələrinin qoşulması gözlənilir. Avropaya inteqrasiya yolu ilə beynəlxalq aləmdə baş verən proseslərdə iştiraka üstünlük verən Azərbaycan da bu prosesdən kənarda qala bilməzdi.

2004-cü il 17-18 may tarixlərində Avropa Şurasının Baş direktorluğunun təşəbbüsü ilə keçirilmiş Qafqaz ölkələri təhsil nazirlərinin konfransında xüsusi Bəyannamə qəbul olunmuş və həmin rəsmi sənədi Azərbaycan Respubilkasının o vaxtkı təhsil naziri Misir Mərdanov imzalamışdır. 2005-ci il may ayının 19-da Norveçin Berqan şəhərində keçirilən konfransda Azərbaycan Boloniya prosesinə qoşuldu. Belarusu çıxmaq şərti ilə Avropa ölkələrinin vahid ali təhsil məkanı formalaşdı. Boloniya prosesi ümumi təhsil sistemində müxtəlifliklə eyniyyət arasında balansı tarazlayır. Hər bir xalqın, millətin tarixi, milli xüsusiyyətləri, adət-ənənələri qorunur, bu dəyərlərə hörmətlə yanaşılır.

Boloniya Bəyannaməsinin əsas müddəaları aşağıdakılardır.

*1. Milli təhsil sisteminin yaxın və ya bir-birinə uyğun ikimərhələli proqramlara və ali təhsildə ixtisaslaşmaya keçidi, yəni ikipilləli ali təhsil sisteminin tətbiqi.*

*2. Ali təhsilin qeyri-universitet sektorunun statusunun gücləndirilməsi.*

*3. Təhsil müddətinin azaldılması.*

*4. Doktorluq proqramlarının təşkili və strukturundakı dəyişikliklər.*

*5. Təhsilin keyfiyyətinə nəzarət.*

*6. Kredit sisteminin tətbiqi.*

*7. Mobilliyin genişləndirilməsi.*

*8. Dərəcələrin tanınması.*

*9. Məzunların işə düzəlməsinin təmin olunması.*

*10. Avropa təhsil sisteminə cəlb olunmanın təminatı.*

*11. Təhsilin sosialyönümlülüyünün təmin edilməsi (ömürboyu təhsil).*

Boloniya Bəyannaməsini imzalayan ölkələrin təhsil nazirləri 2001-ci ilin may ayının 19-da Çexiyanın paytaxtı Praqa şəhərində görüşmüş [1], uğurları, nailiyyətləri təqdir etmiş və gələcək fəaliyyət perspektivlərini müəyyənləşdirmişlər.

Hər il dövlət ali və orta ixtisas məktəblərini, eləcə də dövlət qeydiyyatından keçmiş özəl təhsil müəssisələrini təxminən on minə yaxın pedaqoji ixtisaslı məzun bitirir. Bununla yanaşı, aparılmış analitik təhlillər göstərir ki, ali və orta ixtisas məktəblərini kifayət qədər pedaqoji ixtisaslı məzunun bitirməsinə baxmayaraq, dövlət təyinat komissiyaları tərəfindən gənc mütəxəssis kimi iş yerlərinə göndərilmiş əksər məzunlar tələbat olan yerlərdə əmək fəaliyyətinə başlamır, nəticədə isə yerəçatma əmsalı ilbəil aşağı düşür, respublikanın xeyli ümumtəhsil məktəbləri müəllimsiz qalır.

Pedaqoji ixtisaslı məzunların təyinat bölgüsünün, tələbat olan yerlərə göndərilməsi işinin, təlim-tərbiyə müəssisələrinin pedaqoji kadrlarla təminatı prosesinin tənzimlənməsi məqsədi ilə Təhsil Nazirliyinin "Ümumtəhsil məktəblərinin pedaqoji kadrlarla təminatı prosesinin tənzimlənməsi barədə" 2002-ci il 14 yanvar tarixli, 43 nömrəli əmri  də olmuşdur.

Əsasən pedaqoji profilli dövlət ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərlərinə ünvanlanan bu əmrdə dövlət təyinat komissiyalarının fəaliyyətinin tələb olunan səviyyədə tənzimlənməsi, məzunların təyinat yerlərinə getmələrinin və həmin yerlərdə əmək fəaliyyətinə vaxtında başlamalarının dövlət əhəmiyyəti barədə təbliğatın aparılması, dövlət tələbatı üzrə iş yerlərinin geniş aşkarlıq şəraitində məzunlara təklif olunması, dövlət sifarişində nəzərdə tutulmayan yerlərə gənc mütəxəssislərin göndərilməsi, eləcə də qaydalara zidd olan hallarda azad təyinat verilməsinin qadağan edilməsi, məzunların təyinat yerlərində işə başlamalarına müvafiq nəzarət monitorinqinin aparılması və s. kimi tələblər qoyulmuşdur. Eyni zamanda rayon (şəhər) təhsil şöbələri və ümumtəhsil məktəblərinin rəhbərlərindən sərəncamla gəlmiş gənc mütəxəssislərin vaxtında işlə təmin olunması, əmək fəaliyyətinə başlamış hər bir gənc mütəxəssisə 3 il müddətində qayğının artırılması, onlara lazımi şəraitin yaradılması tələb olunmuşdur. Bu gün yaşadığı bölgədən kənar müəssisələrə təyinat alan və orada işləyən gənclərə torpaq sahəsinin verilməsi də dövlətin gənc

müəllim kadrlara olan diqqət və qayğısının göstəricisidir.

Müəllim kadrlarının hazırlığı keyfiyyətinin yüksəldilməsi yolunda aparılan işlər yalnız ali məktəblərin təhsil prosesində deyil, təhsil müddətini başa vuraraq diplom alıb iş fəaliyyətinə başladıqdan sonra da davam etdirilir. Ümumiyyətlə, müəllimlik peşəsi daim peşə sahibindən öz üzərində işləməyi, araşdırmalar apararaq, zamanla ayaqlaşacaq təlim prosesini təşkil edə bilmək qabiliyyəti tələb edir. Lakin bu gün təhsil sahəsində gedən proseslər yalnız öz üzərində çalışmağı tələb etmir, bunun üçün proqramlar, kurslar təşkil edir, attestasiyalar keçirir. “Fasiləsiz təhsil” Konsepsiyası da elə bu məqsədlə hazırlanmışdır.

Məlumdur ki, 1998-ci il Azərbaycan təhsili tarixinə “İslahatların rəsmiləşdirilməsi ili” kimi daxil olmuşdur. Məhz elə həmin vaxtdan etibarən təhsilin digər pillələri ilə yanaşı, pedaqoji kadrların diplomdan sonrakı təhsilində də köklü islahatların aparılmasına başlanılmışdır. 1998-2000-ci illər ərzində ixtisasartırma və yenidənhazırlanma təhsilinin yeni əsaslarla müasir mexanizmlərə uyğun qurulması üçün 35 adda tənzimləyici sənədlər imzalanmış, ayrı-ayrı mərhələləri özündə əks etdirən mexanizm layihələri ətrafında bu sahənin çoxsaylı mütəxəssislərinin iştirakı ilə bir neçə dəfə geniş müzakirələr keçirilmiş, məqbul sayıla biləcək varianta ekspert rəyləri toplanmış, radikal addımları evolyuson xarakterli fəaliyyət əvəz etmişdir. Artıq 1999-cu ildə imzalanmış I Kredit Sazişinin texniki şərtləri çərçivəsində müəyyənləşdirilmiş 27 pilot müəssisəsində işləyən pedaqoji kadrların yeni təlim metodları ilə bağlı ixtisası artırılmış, məzmun yeniləşdirilmiş, bu prosesdə müasir təlim texnologiyalarına geniş yer verilmişdir.

İslahat Proqramı çərçivəsindəki fəaliyyət Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 iyun tarixli Fərmanı ilə daha da dərinləşdirilmiş, diplomdan sonrakı təhsildə aparılan islahatlar öz məntiqi davamı üçün bir növ əlavə olaraq dəstək almışdır. Məhz bu Fərmana uyğun olaraq Azərbaycanın təhsil sistemində müəllim hazırlığının dünya ölkələrindəki təcrübəyə əsaslanan konseptual strategiyası müəyyənləşdirilmiş, ilkin və diplomdan sonrakı müəllim hazırlığı pillələri beynəlxalq modellərə uyğunlaşdırılaraq, onlara biri-birini tamamlayan proseslər kimi baxılmış, fasiləsiz təhsil kontekstində ilk dəfə olaraq həmin pillənin yeni şəbəkəsi yaradılmışdır.

Fasiləsiz təhsil sistemində pedaqoji kadrların ixtisasartırma və yenidənhazırlanma təhsilinin 5 illik (2003-2007) inkişaf proqramı hazırlanmışdır. Bu proqram fasiləsiz təhsil sistemində pedaqoji kadrların ixtisasının artırılması və yenidən hazırlanması prosesinin perspektiv fəaliyyət istiqamətlərini özündə əks etdirməklə, Azərbaycan Respublikasının təhsil qanunvericiliyi, təhsil sahəsində İslahat Proqramı, Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən I və II Kredit Sazişlərinin texniki şərtləri, eləcə də sahə üzrə qəbul edilmiş normativ-hüquqi aktların konkret müddəalarının lazımi səviyyədə reallaşdırılması məqsədi daşıyırdı [2, s.144].

Proqramın əsas vəzifəsi gələcək 5 il müddətində rəhbər və pedaqoji kadrların ixtisasının artırılması və yenidən hazırlanması, müəllimlərin təkmilləşdirilməsi, peşə-ixtisas müəssisələrində fəaliyyət göstərən elmi-pedaqoji kadrların təcrübə keçməsi ilə bağlı fəaliyyəti tənzimləməkdən, bununla məşğul olan qurumların, müəssisələrin, struktur bölmələrin əlaqəli işini istiqamətləndirməkdən, diplomdan sonrakı təhsil pilləsində aparılan islahatları lazımi səviyyədə həyata keçirtməkdən və konkret pozitiv nəticələrə nail olmaqdan ibarətdir. Bu strateji əhəmiyyətli sənədin dövlət sifarişçisi Azərbaycan Respublikasının Təhsil Nazirliyi, icraçıları isə bütün ixtisasartırma və yenidənhazırlanma təhsil müəssisələri, struktur bölmələri, təhsilin yerli idarəetmə orqanları, təlim-tərbiyə müəssisələri, Təhsil Problemləri İnstitutu, Tədris-Koordinasiya Şurası, beynəlxalq və milli məsləhətçi xidmətləridir [3, s.96].

Proqram müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə, keyfiyyət göstəricilərinin artırılmasına yönəldilərək beynəlxalq təcrübə də nəzərə alınmaqla, ixtisasartırma və yenidənhazırlanma təhsilinin yeni iqtisadi münasibətlər şəraitində müasir mexanizmlərə uyğun qurulması üçün real zəmin yaratmışdır.

Azərbaycanın dünya miqyasında nüfuzunun getdikcə artması təhsil sahəsində beynəlxalq əlaqələrin daha da inkişafına birbaşa təsir göstərir. Hazırda 18 ölkənin təhsil nazirlikləri ilə rəsmi əməkdaşlıq əlaqələri mövcuddur və onun

coğrafiyasının xeyli genişləndirilməsi nəzərdə tutulur. Təhsil Nazirliyi dünyanın 30-a yaxın ölkəsi ilə təhsil əlaqələri yaratmış, 20-dən artıq beynəlxalq təşkilatla, ümumilikdə 70-dən çox birgə layihə və proqramlar həyata keçirir. Belə ki, ABŞ, Fransa, Böyük Britaniya, Almaniya, Rusiya, Çin, Yaponiya, İsrail, Cənubi Koreya, Səudiyyə Ərəbistanı Krallığı, Türkiyə, İran, Misir, Pakistan, Ukrayna, Gürcüstan, Çexiya, Slovakiya və s. kimi ölkələrlə birbaşa təhsil əlaqələri yaradılmışdır. Beynəlxalq əməkdaşlığımız Azərbaycanın milli maraqlarına və ölkənin müəyyən olunmuş xarici siyasət strategiyasına uyğun həyata keçirilir.

**Nəticə.** Təhsil elmsiz, elm təhsilsiz inkişaf edə bilməz. Bu iki strateji sahə bir-biri üçün tədqiqat və tətbiq obyektidir. Onların vəhdətini, qarşılıqlı zənginləşməsini, ümumi məqsədlərə yönəldilməsini təmin etmədən cəmiyyətdə davamlı inkişafa nail olmaq qeyri-mümkündür.

## ƏDƏBİYYAT

1. Kərimov E. Boloniya sistemi və Azərbaycan təhsili.
https://www.celt.az/bolonya-sistemi-v%C9%99-az%C9%99rbaycan-t%C9%99hsili/

2. Rüstəmov F. Azərbaycanda pedaqoji elm: təşəkkülü, inkişafı və problemləri (1920-1991). Bakı, “Bakı Universiteti” nəşriyyatı, 1998, 486 səh.

3. Rüstəmov F. Azərbaycanda ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə elmi-pedaqoji kadr hazırlığı (1927-2010).

**A.Karimova**

### Bologna process in the development of higher pedagogical education and training of pedagogical staff

**Abstract**

In recent years, Europe has also become a place of education. The Bologna Process is of great importance in creating and strengthening the intellectual, cultural, social and technical base of the common European zone. The article also discusses the importance of destruction and its role in the training process in Azerbaijan.

**А.Каримова**

### Процесс Болонии и развитие высшего педагогического образования в Азербайджане

**Аннотация**

В последние годы Европа также стала местом общего образования. Болонский процесс имеет большое значение в создании и укреплении интеллектуальной, культурной, социальной и технической базы общеевропейской зоны. В статье рассматривается роль Болонского процесса в подготовке учителей в Азербайджане.